

SGSP

Shahla Garayeva Scholarship Program

# 2020 İLLİK HESABAT

## Şəhla Qarayeva Təqaüd Proqramı


www.sgsp.info

mail@sgsp.info

# ŞQTP ƏRİZƏ QƏBULU 2020

ŞQTP Ərizə Qəbulu 30 yanvar 2020-ci ildən 10 may 2020-ci il tarixinə qədər davam etmişdir. Bu müddət ərzində, ümumilikdə 172 ərizəçi müraciət etmiş və onlardan 15 kişi müraciətçiçinin ərizəsi seçim prosesinin birinci mərhələsində diskvalifikasiya edilmişdir (təqaüd proqramına uyğunluq tələblərindən biri Azərbaycandan yaşayan qadın tələbə olmaqdır).

Tələbələrin təqaüd proqramına müraciət etmək məqsədi fərdi ehtiyacdan asılı olaraq dəyişir. Aşağıdakı cədvəldə göstərildiyi kimi, qızların əksəriyyəti ya mövcud təhsillərini davam etdirmək ya da şəxsi ehtiyaclarını qarşılamaq üçün müraciət etmişlər:



# Ərizəçilərin Regional Bölünməsi

Ümumilikdə, 157 ərizəçinin müraciəti nəzərdən keçirilib. Ərizəçilərin böyük əksəriyyəti Bakıdan (83), iki nəfər xaricdən və digərləri Azərbaycanın başqa bölgələrindən müraciət ediblər:



# ŞQTP Mentorluq Proqramı

2019-cu ildən etibarən təqaüd proqramı ilə bərabər biz təqaüdçülərimiz üçün mentorluq proqramı da təklif etməyə başlamışıq. Proqramın məqsədi gənc qızların strukturlu şəkildə mentorlarla işləməsini və onların akademik fəaliyyətlərinin, ideyalarının gerçəkləşməsində kömək etmək, karyera məqsəd və planlarının müəyyən olunmasında eləcə də təhsil/bacarıqların artırılması istiqamətində dəstək göstərməkdir.

Mentorluq proqramı təqaüdçülərimiz üçün yeni inkişaf imkanları yaradır. Bu yolla karyera və təhsil imkanlarının artması ilə yanaşı təqaüdçülərimiz təcrübəli mentorlardan praktiki məsləhətlər almaq imkanı əldə edirlər. Müxtəlif sahələrdən olan peşəkarlarla ünsiyyət proqramın iştirakçılarının ünsiyyət bacarıqlarını inkişaf etdirir və onlara daha geniş və dəyərli şəbəkə ilə təmin edir.

Biz mentor axtararkən ən çox inkişafa töhfə verməyi və digərlərinin həyatına müsbət təsir göstərməyi sevən insanlara üstünlük veririk. 2020-ci ildə bizə göndərilmiş doqquz ərizədən altı mentoru proqramda iştirak üçün təsdiqləmişik. Əksər mentorlarımız bu təcrübədən yararlanır və təqaüdçülərdən öyrənməyi üstünlük olaraq görürlər. Həmçinin mentorluq proqramı mentorlar üçün yeni nəsil istedadların yetişməsində rol oynamağa imkan verir.

*Könül Əliyeva*
*ŞQTP Mentorluq Proqramının Koordinatoru*

## RBSL (Rondine Beynəlxalq Sülh Laboratoriyası) *2017-ci ildə əsası qoyulmuş* RBSL dünyanın müxtəlif ölkələrindən olan və “Rondine Cittadella della Pace” Assosiasiyasında beynəlxalq təcrübə keçmiş 200-dən çox peşəkardan ibarət məzun şəbəkəsidir. RBSL-in əsas gücü şəbəkənin üzvü olan şəxsi eləcə də peşəkar dəyişikliklərdən keçmiş və dünyada dəyişikliklər etməyə hazır olan gələcək liderlərdən ibarət genişlənən beynəlxalq şəbəkədir. Öz dəyərləri arasında RBSL qadınların təkcə sülh prosesində iştirakını deyil, eyni zamanda üzv olduqları icmanın həyatında iştirakını onların təhsilləndirilməsi və zəruri alətlərlə səlahiyyətləndirilməsi yolu ilə dəstəkləyir. RBSL gender bərabərliyini cəmiyyətin inkişafı üçün labüd bir tələb olaraq qəbul edir.

Bu il RBSL ilə əməkdaşlıq nəticəsində ŞQTP təqaüdçülərə təkcə maddi yardım etməklə yetinmir, eyni zamanda gender bərabərliyi, məişət zorakılığı və qadınların səlahiyyətləndirilməsi mövzularında təlim proqramlarının keçirilməsinə nail oldu.

Qadınlara və qızlara qarşı zorakılıq mürəkkəb sosial problemdir. Gender bərabərsizlikləri cəmiyyətdə kök salmış patriarxal normaların və tarazsız güc münasibətlərin nəticəsində yaranır və bu mexanizm vasitəsilə cəmiyyətdə bərqərar olub vüsət alır. Müxtəlif formalı xəsarətlərə məruz qalmaq və həyatlarını qorxu içərisində keçirmək qadınları öz potensiallarını tam şəkildə realizə etməkdən çəkindirir, onların rifahına mənfi təsir göstərir və cəmiyyətə töhfələrini azaldır. Bu səbəbdən qadınlara və qızlara qarşı zorakılığını bütün formalarının ləğvi həm humanist, həm də tərəqqi mövqeyindən bütöv cəmiyyətin başlıca məsuliyyətidir.

# Kraudfandinq Kampaniyası 2020

İki ay davam edən kraudfandinq kampaniyası çərçivəsində Azərbaycanda yaşayan qız tələbələri təhsilini maliyələşdirmək üçün toplam ***$4872.86*** (ABŞ dolları) məbləğində vəsait toplandı. Aşağıdakı cədvəldə fərdi dəstəkçilərin ianə etdiyi məbləğə əsasən ianələrin miqdarı ilə tanış ola bilərsiniz:




Bu il ***RBSL (Rondine Beynəlxalq Sülh Laborotoriyası)*** ilə olan əməkdaşlığımız kampaniyadan sonra da ianə qəbul etməyimizə imkan Verdi. Bu səbəbdən, 2020-ci il üçün topladığımız ümumi məbləğ $***5400 (ABŞ dolları) oldu:***



# Maliyyə Hesabatı

| | |
|---|---|
| **GƏLİR** | |
| Mənfəət qalığı | $ 220.37 |
| İctimai ianə kampaniyası | $ 5,295.00 |
| Veb sayt ianəsi | $ 634.11 |
| **CƏMİ GƏLİR** | **$ 6,149.48** |
| **XƏRCLƏR** | - |
| İnzibati xərclər | $ 578.92 |
| Təqaüd | $ 4,028.00 |
| Bank xərcləri | $ 84.00 |
| Təlim xərcləri* | $ 1,300.00 |
| ***CƏMİ XƏRCLƏR*** | ***$ 5,990.92*** |
| **ÜMUMİ MƏNFƏƏT(ZƏRƏ)** | **$ 158.56** |

**31 Dekabr 2020-ci ilin sonuna hesablanmış xərc*

# Seçim Prosesi

Ərizəçilərin seçim prosesi üç mərhələdə aparıldı: 1) İlkin baxış; 2) İanəçilərin qiymətləndirməsi; 3) Müsahibə. Seçim mərhələsinin hər bir mərhələsi aşağıda daha ətraflı izah olunub.

## İlkin baxış

Bu mərhələdə SGSP layihə qrupu 157 ərizəni üç kateqoriyaya bölməklə nəzərdən keçirdi: yüksək ehtiyac, orta ehtiyac, aşağı ehtiyac. Ehtiyacın səviyyəsini müəyyənləşdirmək üçün ərizəçinin sosial və iqtisadi göstəriciləri istifadə olundu. Bütün ərizələrə ilkin baxışdan sonra ŞQTP layihə qrupu ikinci mərhələyə keçən 63 ərizəçini müəyyənləşdirdi.

## İanəçilərin qiymətləndirməsi

ŞQTP ianəçilərindən dörd nəfər və tərəfdaş təşkilatın (RİPL) bir üzvü təqaüdçülərin seçim prosesində iştirak etmək istədiklərini bildirdilər. Bu mərhələdə ianəçilər ərizələrdəki qısa cavab esselərinə baxış keçirib aşağıdakı iki meyar əsasında: ən yüksək ehtiyac və b) gələcək haqqında məqsədlərin aydınlığı - ərizəçilər arasından ən layiqli namizədlərin seçilməsində iştirak etdilər. İanəçilərin qiymətləndirməsi nəticəsində ŞQTP layihə qrupu, müsahibə mərhələsinə keçən 35 finalisti müəyyənləşdirdi.

## Müsahibə

ŞQTP ehtiyaca əsaslanan təqaüd proqramı olduğundan, layihə qrupu təqaüd fondunun tələbələrin ehtiyaclarına nə qədər uyğun olduğunu araşdırmaq məqsədi ilə fərdi telefon, “Zoom” və ya “Skype” vasitəsilə müsahibələr apardı. Bu mərhələdə ŞQTP layihə qrupunun məqsədi hər bir finalist ilə daha yaxından tanış olmaq və ərizə formasında olmayan sualları verməkdən ibarət idi. Diqqətli müzakirələr əsasında dörd günlük müsahibə prosesinin sonunda 6 təqaüdçü seçildi.

## Ləman İsgəndərli

**Yaş:** 21

**Ali məktəb:** Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası

**Təhsil planlarınıza nail olmaqda ŞQTP sizə necə kömək edir?** Mən hal-hazırda bədən tərbiyəsi müəllimliyi (voleybol) üzrə 3-cü kurs tələbəsiyəm. Gələcək məqsədim və planlarım sırasında ilk öncə təhsilimi qırmızı diplomla başa vurmaq daha sonra isə idman menecmenti sahəsində ixtisaslaşmaqdır. Ölkəmizdə idman sahəsində ixtisaslaşmış idman menecerlərinə böyük ehtiyac var və fikrimcə bu sahədə təhslimi davam etdirməklə nailiyyət əldə edə bilərəm. Bu yolda ŞQTP vasitəsilə ilk böyük addımımı, uğurumu atmış oldum.

## Fatimə Kərimova

**Yaş:** 20

**Ali məktəb:** Qərbi Kaspi Universiteti

**Təhsil planlarınıza nail olmaqda ŞQTP sizə necə kömək edir?** 2018-ci ildə 26 nömrəli məktəbin təmayüllü sinfindən məzun olduqdan Qərbi Kaspi Universitetinin Filologiya (Azərbaycan dili və ədəbiyyatı) ixtisasına qəbul olmuşam. Hal-hazırda həmin universitetin 2-ci kursunu başa vurmuşam. İxtisasımı öz istəyimlə seçmişəm və bu ixtisasa dərindən yiyələnmək istəyirəm. Gələcəkdə də bu ixtisas üzrə çalışmağı planlayıram. Bakalavr təhsilimi başa vurduqdan sonra ilk növbədə magistraturaya qəbul olmaq istəyirəm. Təhsilimi bacardığım qədər artırmaq niyyətim var.

## Bilqeyis Rəfizadə

**Yaş:** 19

**Ali məktəb:** Azərbaycan Dövlət İqtisad Universiteti

**Təhsil planlarınıza nail olmaqda ŞQTP sizə necə kömək edir?** Bir il əvvəl inşaat kollecindən məzun olduqdan sonra Azərbaycan Dövlət İqtisad Universitetində informasiya texnologiyaları (İT) ixtisası üzrə təhsil almağa başladım. Ailədə beş nəfər olmağımız və məndən başqa iki bacımın olması özü özlüyündə maddi çətinliklər yaradır. Düşünürəm ki, ölkəmizdə IT üzrə qadın mütəxəssislər çox azdır və savadlı, bacarıqlı kadrlara ən çox ehtiyac duyulan sahələrdən biridir. Mən gələcəkdə özümü daha da təkmilləşdirərək bu peşəyə yiyələnib İT sahəsində öz yerimi tutmaq istəyirəm. Hədəflərimə çatmaqda maneələr olmasına rağmən, ŞQTP mənə böyük dəstək oldu və yoluma ŞQTP vasitəsilə böyük həvəslə davam edəcəyəm!

## Ülviyyə Nəzərova

**Yaş:** 20

**Ali məktəb:** Bakı Dövlət Universiteti

**Təhsil planlarınıza nail olmaqda ŞQTP sizə necə kömək edir?** Coğrafiya müəllimliyi ixtisasında sonuncu kurs tələbəsi olaraq, gələcəyim haqqında çox ciddi fikirləşirəm. Savadlı kadr olmaq üçün əlimdən gələni etsəm də, tək valideyn tərəfindən böyüdüldüyümə görə və məndən başqa bacım, qardaşım olduğuna görə maddi tərəfdən bəzi hədəflərimə çatmaq imkansız olub. Magistratura təhsilimi xarici ölkələrin birində almaq istərdim, bunun üçün maksimal dərəcədə öz üzərimdə çalışıram. Təhsil aldıqdan sonra geri qayıdıb Azərbaycan gənclərinə öz bilik, savad, təcrübəmi ötürməyi özümə borc bilirəm. Şəhla Qarayeva ilə tanış olmasamda, onun həyatı və etdikləri məni buna ilhamlandırdı. ŞQTP vasitəsilə təhsilimi maneəsiz davam etdirib, gələcək karyera planlarıma daha da ümüd dolu və əmin addımlarla irəliyəcəyəm.

## Jalə İsizadə

**Yaş:** 19

**Ali məktəb:** Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

**Təhsil planlarınıza nail olmaqda ŞQTP sizə necə kömək edir?** Hal-hazırda neft-mexanika ixtisası üzrə təhsilimi davam etdirməkdə ailəmin maddi vəziyyəti mənim üçün çətinlik yaradır. İnanıram ki, savadlı qadın savadlı cəmiyyətin təməllərindəndir. Bu yolda bakalavr təhsilimi bitirdikdən sonra magistr təhsili almaq istəyirəm. İxtisasımın çoxşaxəliliyi mənə geniş seçim imkanı verir. Təhsilimi neft-kimya mühəndisliyi istiqamətində davam etdirməyi planlayıram. Bunun üçün yorulmadan və böyük əzmlə daima çalışıram. ŞQTP-nı qazanmaq mənə yüksək motivasiya oldu. Artıq mənim də ən böyük istəyim bu dəyərə layiq olmaq və gələcəkdə mənim kimi dəstəyə ehtiyacı olan gənc qızların yanında olmaqdır.

## Gülgəz Hacıyeva

**Yaş:** 19

**Ali məktəb:** Azərbaycan Dillər Universiteti

**Təhsil planlarınıza nail olmaqda ŞQTP sizə necə kömək edir?** Şuşa rayon 6 nömrəli orta məktəb və Xocalı şəhər 2 saylı musiqi məktəbini 2018-ci ildə bitirdikdən sonra mən Azərbaycan Dillər Universitetində tərcümə (ispan dili) ixtisasına qəbul oldum. İnanıram ki, tədris sadəcə universitet divarları daxilində deyil, həm də dərsdən kənar təlimlərdə, seminarlarda, sosial layihələrdə və s. fəaliyyətlərdə baş verir. Elə bu səbəbdən hal-hazırda Təhsil Nazirliyi nəzdində Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsində təcrübə proqramında iştirak edirəm. Dil bacarıqlarımı inkişaf etdirib bakalavr təhsilimi uğurla bitirdikdən xaricdə təhsil almağı düşünürəm. Vətənin qadın səsi olaraq ən böyük məqsədlərimdən biri Azərbaycanı, onun tarixini, mədəniyyətini, təbiətini bütün dünyaya nümayiş etdirməkdir.